BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2009

# 1918-1923-cü İLLƏRDƏ İRAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

**R.B.ASLANOV**
***Bakı Dövlət Universiteti***
***aslanovrovsan@rambler.ru***

*Məqalədə I Dünya müharibəsindən sonra İran-türk münasibətlərinin mahiyyəti açıqlanır. Əsas yer İran-türk münasibətlərinin ziddiyyətlərin kəskinləşməsində rol oynayan sərhəd problemləri, həmçinin kürd məsələlərinə ayrılır.*

I Dünya müharibəsindən sonra İranla Türkiyə arasında siyasi və diplomatik əlaqələrin yaranması cətin, bir qədər bir-birinə bənzər mürəkkəb beynəlxalq şəraitdə baş verirdi.

Türkiyənin istər daxili, istərsə də beynəlxalq vəziyyətinin pisləşməsinə səbəb ingilislər tərəfindən hazırlanan və həyata keçirilən Anadoluya yunan muzdlu ordu birləşmələrinin və Fransa qoşunlarının çıxarılması olmuşdu. İranın da daxili və beynəlxalq vəziyyətinin gərginləşməsində 1919-cu ilin avqustunda bağlanmış İngiltərə-İran müqaviləsinin xüsusi rolu var idi.

Belə mürəkkəb və gərgin şəraitdə ərazi iddialarını həll etmək, möhkəm qarşılıqlı anlaşmaya əsaslanan dostluq əlaqələri yaratmaq xeyli çətinləşirdi. Eyni zamanda hər iki ölkənin xalqları xarici müdaxiləyə və daxili parçalanmaya qarşı milli azadlıq mübarizəsinə başlamışdı.

Qeyd edilməlidir ki, eyni vəziyyətdə olmalarına baxmayaraq İranla-Türkiyə arasında gərginlik davam etməkdə idi. XVI əsrdən XX əsrin əvvəllərinə qədər bu dövlətlər arasında müxtəlif xarakterli münaqişələr, sərhəd toqquşmalrı baş vermişdi. Uzun illər davam edən sərhəd toqquşmalarını həll etmək üçün bir sıra rəsmi sənəd, o cümlədən sərhəd müqaviləsi bağlanmışdı. Lakin bu müqavilə tərəflərə əbədi barışıq gətirmədi (1).

Özlərinin Yaxın və Orta Şərq regionunda mövqelərini saxlamaq və möhkəmləndirmək naminə İngiltərə, Fransa, Rusiya və Almaniya kimi dövlətlər İranla Türkiyə arasındakı sərhəd münaqişələrindən məharətlə yararlanaraq ondan öz məqsədləri üçün istifadə etməyə çalışırdılar.

Yalnız 1913-cü il sazişindən sonra 1914-cü ildə İngiltərə və Rusiyanın vasitəçiliyi ilə hər iki dövlət arasında sərhədlərin demakrasiyası haqqında Türkiyə-İran müqaviləsi imzalandı (2).

Birinci dünya müharibəsinin sonunda İraqın Osmanlı imperatorluğundan qoparılması nəticəsində İran-Türkiyə sərhədi xeyli qısaldı. Buna baxmayaraq İranla Türkiyə arasında sərhəd məsələləri uzun müddət mübahisə mənbəyi olaraq qalırdı. Dünya müharibəsi illərində Osmanlı imperatorluğunun məhdud qoşun hissələri ruslara qarşı İranın Qərb rayonlarına yeridilmişdi. Rus qoşunlarının İrandan çıxarılmasından sonra 1917-ci il 2(15) dekabr Rusiya-Almaniya-Türkiyə arasında bağlanan barışığa əsasən rus və türk hərbi komandanlığı öz qoşunlarını İrandan çıxarmağa hazır olduqlarını

bildirdilər (3).

1918-ci ilin aprelində Sovet Rusiyası öz ordu birləşmələrini İrandan çıxartdı. Türkiyə öz qoşun hissələrini geri çəkmədi, hətta ingilislərin İrandan Osmanlı dövlətinə mümkün hücumunun qarşısını almaq məqsədilə bura əlavə hərbi kontinigentdə yerləşdirməyə başladı. Mudros barışığından sonra 1918-ci ilin oktyabrından İrandan Osmanlı ordu birləşmələrinin çıxarılmasına başlandı. Bununlada İranla Türkiyə arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaranmış oldu.

Lakin İranın bəzi hakim dairələri Türkiyə ilə münasibətləri normallaşdırmaq əvəzinə ərazi iddiaları ilə çıxış etməyə başladılar. 1918-ci ilin sonunda İran hökumətinin Paris sülh konfransı üçün hazırlanan memorandumunda müharibə illərində onun bitərəfliliyini pozduğuna görə Türkiyə və Rusiyadan təzminat tələb edilirdi. Bu bəhanə ilə Osmanlı imperatorluğundan Kürdüstanla birgə Diyarbəkir və Mosulun birdəfəlik İrana verilməsini təkid edirdi (4).

İran nümayəndəsi Paris sülh konfransına buraxılmasa da İngilis nümayəndəsi Osmanlı imperatorluğunun məsələsi müzakirə edilərkən onların tələblərinin nəzərə alınacağını vəd vermişdi. İngilislər tərəfindən ərazi iddialarının yerinə yetirilməsinə nail olunmasına çalışan İranın xarici işlər naziri Kerzon və səfir Derbi ilə görüşlərində Kürdüstan arasında sərhəd məsələsinin uydurma olduğunu iddia edərək bütün Kürdüstanın tarixi İran ərazisi kimi ona qaytarılmasını məqsədə uyğun hesab edirdi (5, p. 1214, 1297). Firuz Mirzə tərəfindən Britaniyanın Xarici işlər nazirliyinə təqdim olunan xəritədə İranın təkcə Türkiyənin deyil, hətta Şimali Azərbaycanın da İrana birləşdirilməsini təklif edirdi (5, p. 1246).

Kerzon Firuz Mirzənin şimalda, şimal-şərqdə və qərbdə sərhədlərin dəyişdirilməsi üçün hərbi müdaxilə lazım olduğunu bildirdi. Lakin nə Londonun, nə də Tehranın müdaxiləyə imkanı olmadığına görə güc işlətməyin qeyri mümkün olduğunu bəyan etdi. Eyni zamanda Kerzon İranın Kürdüstanda öz hakimiyyətini möhkəmləndirmə cəhdini qeyri mümkün hesab edirdi. Bununla belə Kerzon İranın Türkiyəyə qarşı iddialarının bir qismini müdafiə edəcəyini söz verdi (5, p. 1263).

Qeyd edilməlidir ki, bu dövrdə İraq, İran və Osmanlı kürdlərinin bir qismi İngilislərin himayəsi altında vahid Kürdüstan dövləti yaradılması uğrunda mübarizəyə qoşulmuşdu.

Bunların içərisində Şeyx Mahmud Bərzancinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Süleymaniyyə kürd elitasının rəhbərlərindən biri olan Şeyx Mahmud başda olmaqla müstəqil kürd dövləti yaradılmasında onlar ingilislərdən yardım almaq niyyətində idilər. 1918-ci ilin martında şeyx Mahmud yazırdı: "Kürd xalqı sərhəddin hər iki tərəfində (İran-Türkiyə sərhədi nəzərdə tutulur – R.A.) ingilis bayrağının himayəsi altında birləşmək arzusundadır. Türkiyənin Kürdüstan üzərində yenidən hakimiyyətini ingilislər bərpa etmək istəsələr, onlar Allahın lənətinə gələ bilərlər (6, pp. 85-87, 2094). Həqiqətdə isə şeyx Mahmud və digər kürd rəhbərləri ingilislərin səmimiyyətinə şübhə ilə yanaşırdı. Əsas məsələ ondan ibarət idi ki, şeyx Mahmud Britaniya protekratlığı altında yaradılacaq dövlətə Türkiyənin də iddia etdiyi Mosul vilayəti ilə yanaşı Kürdlərin əksəriyyət təşkil etdiyi İranın cənub vilayətlərinində qatılmasını istəyirdi. İngiltərə hökuməti şeyx Mahmud tərəfindən yaradılacaq kürd konfederasiyasına İran Kürdüstanın qatılmasına qəti etiraz etdi (6, p. 129).

Kürd rəhbərlərindən şeyx Mahmudla eyni mövqedə olan seyid Taxa və Simkoda buna bənzər mövqedən çıxış edərək İranın, Türkiyənin və İraqın tarixi ərazisi hesabına Kürdüstan konfederasiyası yaradılması uğrunda mübarizəyə qoşulmuşdular.

Seyid Taxa 1919-cu ilin mayında İngiltərə nümayəndəsi ilə Bağdadda görüşü zamanı İraq və İran Kürdüstanını birləşdirəcək Britaniya kralının himayəsi altında birləşmiş Kürd dövlətinin yaradılması planını təklif etdi. İngilislər İran Kürdüstanının İraq Kürdüstanı ilə birləşdirilməsi haqda seyid Taxanın təklifini qəti olaraq rədd etdilər. Bunun cavabında seyid Taxa İngiltərənin razılığı olmadan da yaradılması nəzərdə tutulan Kürd dövlətinə İran Kürdüstanın da qatılacağı haqda bəyanat verdi (7, 69).

Türklərin 1919-1920-ci illərdə milli-azadlıq mübarizəsi nəticəsində əldə etdikləri qələbələrə baxmayaraq, İran hökuməti Antanta dövlətlərinin Türkiyə ilə sülh müqaviləsi layihəsinin müzakirəsi zamanı bəyanat göndərərək İranın qərb sərhədləri məsələsinə də baxılmasını xahiş etdi. Burada Türkiyənin şərq əraziləri tarixi İran torpağı kimi ona qaytarılması tələbi irəli sürülürdü. Kerzon İranın qərb sərhəd iddialarında onu nəzərə alacağını vəd edirdi (8, p.476, 945). Türkiyə ilə sülh müqaviləsi layihəsinin müzakirəsi zamanı San-Remo konfransı Kerzonun təklifi ilə İran-Türkiyə sərhədlərinin mümkün dəyişilməsi üçün İngiltərə, Fransa və İtaliya nümayəndələrindən ibarət komissiya yaradılması təklifinin qəbul edilməsinə nail oldu (8, p.477). Bu məsələ öz əksini 1920-ci il avqustun 10-da bağlanan Sevr müqaviləsinin 62-ci bəndində tapmışdır. Burada Türkiyə ilə sülh müqaviləsi bağlandıqdan 6 ay sonra Türkiyə-İran sərhədlərinə yenidən baxmaq üçün İngiltərə, Fransa, İtaliya, İran və kürd nümayəndələrindən ibarət komissiya yaradılması nəzərdə tutulurdu. Lakin kürd liderləri arasındakı daxili narazılıq kürd dövlətinin yaradılmasını şübhə altına alırdı.

1920-ci il aprelin 23-də çağırılan Türkiyə Böyük Millət Məclisi Sevr müqaviləsini qeyri-qanuni elan edərək İraqa, İrana öz nümayəndələrini göndərib, İngiltərəyə qarşı təbliğatını daha da gücləndirdi və bir sıra ölkələrə, o cümlədən İran Azərbaycanına da öz nümayəndələrini göndərdi.

1920-ci ilin sonunda Cənubi Azərbaycanın general qubernatoru, baş nazir Sepehdardan "Mustafa Kamal Paşanın nümayəndələri ilə hansı mövqedən çıxış etməyi" soruşdu. İngiltərənin İrandakı səfiri Qerman Normanın məsləhəti ilə Sepehdar, hal-hazırda hökumətin hərbi qüvvəsinin olmadığı üçün lazım gələrsə, öz adından Ankaranın nümayəndələri ilə danışıqlar aparmasını təklif edirdi. Ankara rejimini tanımaq istəməyən İran hökuməti İstanbul hökuməti ilə əməkdaşlığa üstünlük verirdi.

Lakin dünyanın bir sıra müsəlman ölkələrində Ankara hökuməti ilə həmrəyliyin artması İranı da xeyli düşündürməyə vadar etməli idi. Belə ki, İranın bir sıra bölgələrində Türkiyədə gedən azadlıq hərəkatının təsiri artmaqda idi. Məhz bu qüvvələrin təzyiqi altında İranın baş naziri Qəvam əs-Səltənə Türkiyə ilə münasibətləri nizama salmaq üçün danışıqlara başlamağa məcbur oldu (9, 107) Çünki hələ 1921-ci ilin ortalarında İranla diplomatik münasibətlər qurmaq üçün Tehrana Ankara hökumətinin nümayəndə heyəti də gəlmişdi. Öz növbəsində İran hökuməti İran-Türkiyə münasibətlərinə aid bir sıra məsələləri müzakirə etmək üçün maarif naziri Mömtəza əd-Doyləni Ankaraya göndərilmişdi. İran qəzetlərində türk xalqının azadlıq müzakirəsini müdafiə edən məqalələr nəşr edilməyə başladı. Bu münasibətlə "Meyhan" qəzeti yazırdı: "Böyük Britaniya Türkiyəyə qarşı hər hansı plan hazırlamasına baxmayaraq İran xalqı Türkiyəni müdafiə etməyə hazırdır." İran xalqının azadlıq uğrunda mübarizə aparan türk millətinə simpatiyasının artmasının təsiri altında 1922-ci il iyun ayının 26-da Qəvam əs-Səltənə kabineti TBMM-ni tanımaq haqqında bəyanat verdi (10). Bu bəyanatdan bir neçə gün sonra İranın fövqəladə səfiri öz etibarnaməsini Mustafa Kamal paşaya təqdim etdi.

Bu dövrdən etibarən İran-Türkiyə münasibətlərində daha ılıq münasibətlər

mərhələsi başlandı. 1922-ci ilin sentyabrında İran hökuməti fransa səfirliyi vasitəsilə Yunanıstan hökumətinə Türkiyə ərazisindən geri çəkilərkən yunan ordusunun dinc əhaliyə qarşı törətdiyi vəhşiliklərə qarşı etiraz notası göndərmişdi (11, 134). 1922-ci ilin oktyabrında İranın hərbiyyə naziri Rza xanın xüsusi nümayəndəsi Mustafa Kamal Paşanı müdaxiləçilər üzərində qələbə münasibətilə təbrik etmək üçün Ankaraya gəlmişdi. 1923-cü ilin əvvəllərində Tehrana gələn Türkiyənin yeni səfiri Muhəddin paşanı İran əhalisi böyük təntənə ilə qarşılamışdı (11, 160-161).

Buna baxmayaraq İran hökumətinin baş naziri Qəvam əs-Səltənə Türkiyə Kürdüstanın ərazi iddialarından əl çəkməmişdi. Hətta kürdlərin liderlərindən biri şeyx Mahmudla İran, İraq və Türkiyə əraziləri hesabına İranın himayəsi altında Kürd dövlətinin yaradılması haqqında danışıqlar da aparmışdı (12). İran hökuməti 1922-ci ilin noyabrında Sevr sülh müqaviləsinin şərtlətinə yenidən baxmaq üçün çağrılan Lozanna sülh konfransında iştirak etmək niyyətində olduğunu da rəsmən bildirmişdi. 1922-ci il noyabrın 22-də Lozanna sülh konfransı öz işinə başladı. Lakin İranın baş naziri Qəvam əs-Səltənə İngiltərəni İranın bu sülh konfransında iştirakına neqativ münasibətini bilərək ölkəsinin burada iştirakını tələb etmədi. Sovet hökumətinin təkidli tələbinə baxmayaraq Qəvam əs-Səltənə İranın Qara dənizində marağı olmadığından konfransda iştirak etmək niyyətində olmadığı haqda bəyanat verdi. Baş nazirin bu bəyanatına baxmayaraq məclis 1923-cü il yanvarın 18-də Milli blokun təkidi ilə İranın Lozanna konfransında iştirakı haqda məsələni müzakirəyə çıxartdı, lakin məclis Milli blokun təklifini rədd etdi (13).

Bu məsələnin Milli blokun arzusuna uyğun həll edilməməsi Qəvam əs-Səltənə hökumətinin 1923-cü il yanvarın 25-də istefasına səbəb oldu.

Hakimiyyətə gələn Mustofi əl-Məmalik hökuməti Lozanna sülh konfransında iştirak etmək haqda Antanta dövlətlərinə muraciət etsə də müsbət cavab almadı. Özünü Türkiyənin həqiqi dostu adlandıran Sovet rəhbərliyidə heç bir əsası olmadan, İranın Lozanna sülh konfransında iştirakını təkidlə tələb edirdi (14). Antanta dövlətləri İranın Türkiyə ilə müharibə şəraitində olmadığı üçün onun Lozanna sülh konfransında iştirakına icazə vermədi.

Ankara hökumətini tanımaqlarına baxmayaraq İran rəhbərliyi diplomatik yazışmalarda hələ də Osmanlı dövləti ifadəsini işlətməkdə davam edirdi. Məhz bu səbəbdən Mustafa Kamal paşa 1923-cü il avqustun 31-də Ankaraya gəlmiş İran səfirinin etimadnaməsini qəbul etməmişdi. İran səfiri Ankaranı tərk etdi.

1923-cü il sentyabrın 17-də Türkiyə sərhədçiləri İran tərəfdə mübahisəli hesab edilən Bulakbaşı bölgəsini ələ keçirdilər. Yenicə baş nazir postuna yiyələnən Rza xan Türkiyə ilə münasibətləri gərginləşdirmək istəmədiyindən Türkiyənin xeyrinə Bulakbaşı bölgəsinə olan iddiasından ək çəkdiyini elan etdi. Bununla da münaqişə aradan qaldırılmış oldu.

Buna baxmayaraq hər iki dövlət arasında qarşılıqlı inamsızlıq hökm sürürdü. Bu inamsızlığın səbəblərindən biri də İngilis agentləri tərəfindən İran-Türkiyə sərhədində törədilən sərhəd münaqişələri idi. İngilislər bu yolla Türkiyəni Mosula olan qanuni iddialarından əl çəkməyə məcbur etməyə çalışırdı.

İranda faktiki hakimiyyətin Rza xanın əlinə keçməsi də Türkiyə hakim dairələri arasında narahatçılıq yaradırdı. Çünki İngilis təbliğatı Rza xan öz agenti kimi tanıtmağa çalışırdı və o respublika hərəkatı pərdəsi altında hakimiyyəti ələ ala bilərdi (11, 156). Bu narahatçılıqlara baxmayaraq Türkiyənin səyi nəticəsində əməkdaşlıq üçün ciddi addımlar atılmağa başladı.

Beləliklə I dünya müharibəsindən sonra bəzi dövlətlərin və siyasi qüvvələrin səyinə baxmayaraq İran ilə türkiyə arasında mövcud zuddiyyətləri kəskinləşdirmək mümkün olmadı. Bu qüvvələr Türkiyə və İran xalqlarının azadlıq hərəkatı qarşısında geri çəkilməyə məcbur oldular. Ankara ilə Tehran arasınada münasibətlərin yaxşılaşması gələcək dostluq əlaqələrinin inkişafı üçün zəmin yaratdı.

## ƏDƏBİYYAT


1. Асланов Р.Б. Ирано-турецкие отношения в 20-60-х годох XIX в. Диссертация на соискание ученой степени кандидата исторических наук. Баку, 1983, 158 с.
2. Mahmud Fərhad Mötəmed-i Tarix-e rəvabət-e siyasi İran və Osmani. Tehran, 1948. 406 s.
3. Документы внешней политики СССР. Т.I. М.: Наука, 1957, 510 с.
4. Агаев С. Октябрьская революция и межгосударственные отношения на Ближнем и Среднем Востоке // Известия академии наук Азербайджанской ССР. Серия истории, философии и права. Баку, 1967. № 3-4. с.145; 143-160.
5. Documents on British foreign policy (1919-1939). First series, vol. IV. London 1952. p.1214, 1246, 1263.
6. Wilson. Mesopotamia 1917-1920. A. Clash of Loyalties. A. Personal and Historical Record. London. 1931, p. 85-87, 209.
7. Лазарев М.С. Империализм и курдский вопрос (1917-1923). М.: 1989, 324 с.
8. Documents on British foreign policy (1919-1939). First series. vol. XII. London, 1952, p.476, 945.
9. Агаев С.Л. Иран в период политического кризиса 1920-1925 гг. М., РАН, 1970. с.209.
10. Robinson R.D., The first Turkish Republic, Cambridge, 1963, p.290-291, 468.
11. Hüseyn Məkki. Tarix-e biist-e sal-e İran. Tehran 1321, s.317.
12. Main E. Iraq from Mandate to Independence. London 1935, pp.136-137, 264.
13. Malek əş- Şoara Bahar. Tarix-e moxteser ehzab-e siyasi İran. c.I, Tehran, 1232. s.47-48, 305.
14. Чичерин Г.В. Статьи и речи. М.: Наука, 1961, с.238-240, 156.


## ИРАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ В 1918-1923 гг.


**Р.Б.АСЛАНОВ**


## РЕЗЮМЕ


В статье раскрывается суть ирано-турецких отношений после первой мировой войны. Здесь особое место отводится пограничным проблемам, особенно курдскому вопросу, который сыграл немаловажную роль в ухудшении ирано-турецких отношений.

В статье проанализированы результаты ирано-турецких переговоров в 1920-1923 гг. и их положительные результаты.


## IRAN-TURKEY RELATIONS IN 1918-1923


**R.B.ASLANOV**


## SUMMARY


The essence of Iran-turkey relations after World War I is revealed in the article. The special place in the article is allocated to boundary problems, especially Kurdish question which plays an important role in the deterioration of Iran-Turkey relations.

Iran-Turkey negotiations in 1920-1923 and their positive results are analyzed in the article.